**«Qiymətli metallardan zərgərlik və digər məişət məmulatlarının hazırlanması ilə məşğul olan hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən məhsullarına öz ad damğalarının vurulması Qaydaları»nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI

«Qiymətli metallar və qiymətli daşlar haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 317 nömrəli Fərmanının 1.25-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. «Qiymətli metallardan zərgərlik və digər məişət məmulatlarının hazırlanması ilə məşğul olan hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən məhsullarına öz ad damğalarının vurulması Qaydaları» təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 02 avqust 2007-ci il
№ 122

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2007-ci il 2 avqust tarixli 122 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Qiymətli metallardan zərgərlik və digər məişət məmulatlarının hazırlanması ilə məşğul olan hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən məhsullarına öz ad damğalarının vurulması

## Q A Y D A L A R I

1. Bu Qaydalar «Qiymətli metallar və qiymətli daşlar haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 317 nömrəli Fərmanının 1.25-ci bəndinə əsasən hazırlanmışdır və qiymətli metallardan zərgərlik və digər məişət məmulatlarının hazırlanması ilə məşğul olan hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən məhsullarına öz ad damğalarının vurulması qaydalarını müəyyən edir.

2. Ad damğalarının formaları Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət Dövlət Xidməti tərəfindən müəyyənləşdirilir.[1]

3. İstehsalçının ad damğası onu digər istehsalçıların ad damğalarından fərqləndirən hərflərin kombinasiyasından, yaxud digər simvollardan ibarətdir.

4. Ad damğasında hüquqi şəxs olan istehsalçının adının hər hansı iki hərfi, hüquqi şəxs yaratmadan fiziki şəxs kimi sahibkarlıq fəaliyyəti ilə məşğul olan istehsalçının isə

adının və soyadının baş hərfləri həkk edilməlidir. Ad damğasının eni 1 mm-dən, uzunu isə 3 mm-dən artıq olmamalıdır.

5. Ad damğasının cilalanmış metal lövhəcik üzərində əksi istehsalçının ərizəsi ilə birlikdə qeydiyyata alınması və saxlanılması üçün əyar nəzarətini həyata keçirən orqana təqdim edilir.

6. Ad damğasında məmulatın hazırlandığı və qeydiyyata götürüldüyü ilin sonuncu rəqəmi göstərilir.

7. Məmulatlara ad damğası əyar damğasının sol tərəfində vurulur.

8. Vaxtı keçmiş ad damğaları istehsalçılar tərəfindən akt tərtib edilməklə, ləğv edilir və bu barədə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət Dövlət Xidmətinə məlumat verilir.

9. Ad damğaları möhür və ştampların hazırlanmasına xüsusi razılıq (lisenziya) almış nəşriyyatlarda hazırlanır.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

**1.** 16 aprel 2009-cu il tarixli 64 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 04, maddə 282)**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 16 aprel 2009-cu il tarixli 64 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 04, maddə 282)** ilə «Qiymətli metallardan zərgərlik və digər məişət məmulatlarının hazırlanması ilə məşğul olan hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən məhsullarına öz ad damğalarının vurulması Qaydaları»nın 2-ci və 8-ci bəndlərində ismin müvafiq hallarında «**Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Əyar Palatası**» sözləri ismin müvafiq hallarında «**Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət Dövlət Xidməti**» sözləri ilə əvəz edilmişdir.